UOT 338.2

Rafiq Məcid oğlu RZAYEV
AR ETN İqtisadiyyat İnstitutunun
böyük elmi işçisi
rafiqrzayev74@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2024.004.011

KİÇİK İNNOVASİYA SAHİBKARLIĞININ İNKİŞAF ASPEKTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi – kiçik innovasiya sahibkarlığının inkişaf aspektlərinin müəyyənləşdirilməsidir.

Tədqiqatın metodologiyası – tədqiqat işində sistemli və digər yanaşmalardan, o cümlədən məntiqi ümumiləşdirmə və müqayisəli təhlil üsulundan istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – tədqiqatda əsaslı araşdırmalar innovasiya sahibkarlığını stimullaşdıran amillərin və onların inkişaf xüsusiyyətlərinin müəyyənləşdirilməsinə şərait yaratmaq imkanına malikdir.

Tədqiqatın nəticələri – kiçik innovasiya sahibkarlığının inkişaf aspektlərinə təsir edən faktorların və onların formalaşması xüsusiyyətlərinin nəzəri baxımdan araşdırılması bir sıra nəticələrin əldə olunmasına gətirib çıxarır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – iqtisadiyyatın şaxələndirilməsi, rəqabətqabiliyyətliliyin artırılması və ümumilikdə, iqtisadi tərəqqi üçün əhəmiyyətli olan kiçik innovasiya sahibkarlığının inkişaf aspektlərinin müəyyənləşdirilməsi araşdırmanın elmi cəhətdən aktuallığını müəyyən edir.

Açar sözlər: innovasiya sahibkarlığı, biznes modeli, metodoloji yanaşma, startap, vergi güzəştləri, texnoparklar, elmtutumlu, milli innovasiya sistemi.

Giriş

Dünya təcrübəsinin də göstərdiyi kimi, postsənaye iqtisadiyyatında kiçik müəssisələr ictimai istehsal prosesinin strukturunda mühüm halqaya çevrilir və bu müəssisələr olmadan cəmiyyətin uğurlu sosial-iqtisadi inkişafını və istehsalın səmərəliliyinin artırılmasını təmin etmək mümkün deyil. Üstəlik, indi iqtisadi artım tempini, ümummilli məhsulun strukturunu və keyfiyyətini müəyyən edən əsas sahə kiçik sahibkarlıqdır. Bu baxımdan kiçik innovativ müəssisələr də xüsusi əhəmiyyət daşıyırlar. Elmtutumlu texnologiyalar və məhsullar hazırlayıb istehsala tətbiq edən bu müəssisələr elm və istehsal arasında əlaqə rolunu oynayırlar. Məhz kiçik müəssisələr yeni məhsullar və texnologiyalar işləyib hazırlayarkən və biliyi əmtəəyə çevirərkən çox vaxt riskə gedirlər. Fəaliyyətlərinin riskli olması səbəbindən bəzi müəssisələr yox olur, digərləri meydana çıxır. Buna baxmayaraq, milli innovasiya sistemlərində kiçik innovasiya müəssisələrinin iştirakını təmin edən müəyyən balans yaranır. Ümumiyyətlə, kiçik innovasiya sahibkarlığı yeni və yaradıcı ideyalar əsasında texnologiya, məhsul və ya xidmətlər inkişaf etdirən kiçik ölçülü bizneslərə aiddir. Bu sahibkarlıq forması daha çox sürətlə dəyişən bazar mühitində yeni həllər təklif etməyə və müştəri ehtiyaclarını qarşılamağa yönəlib. Kiçik innovasiya sahibkarlığı, əsasən, yeni texnologiyalar, biznes modelləri və ya xidmətlərin yaradılmasına fokuslanır. Bu sahədə məhsul və ya xidmətləri müştəri rəylərinə əsasən inkişaf etdirərək qısa müddətdə bazara təqdim etməyi hədəfləyən sahibkarlar, adətən, maliyyə, kadr və digər resurs çatışmazlıqları yaşasalar da, çeviklik və yeniliklərə uyğunlaşma bacarığı nümayiş etdirərək üstünlük qazana bilirlər. Kiçik innovasiya sahibkarlığında risk səviyyəsinin yüksək olmasına baxmayaraq, həyata keçirilən uğurlu innovasiyalar böyük qazanclar və bazar üstünlüyü gətirə bilər. Rəqəmsal texnologiyaların tətbiqi və startapların əsas komponenti olaraq innovativ yanaşmalar burada əsas rol oynayır. Yeni iş imkanlarının yaradılması, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması, o cümlədən regionun sosial-iqtisadi inkişafına

verilən nəzərəçarpacaq töhfə kiçik innovasiya sahibkarlığının əsas üstünlükləri hesab oluna bilər. Bu sahibkarlıq sahəsi xüsusilə inkişaf etməkdə olan bazarlarda iqtisadiyyatın mühərriki kimi çıxış edir və cəmiyyətin problemlərini həll etməyə yönəldilir. Azərbaycanda bu sahənin dəstəklənməsi üçün müxtəlif proqramlar və fondlar (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, Sahibkarlığın İnkişafı Fondu və s.) mövcuddur. Onu da qeyd edək ki, ölkəmizdə müasir texnoloji sahələri və innovasiyaları dəstəkləyən rəqəmsal cəmiyyət inkişafı üçün bir sıra tədbirlər həyata keçirilir. Bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiqlədiyi “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də öz əksini tapıb. Sənəddə deyilir: “Yeni dövrdə qurulacaq ekosistem (müvafiq təşviqlər, inkubasiya və akselerasiya mərkəzləri, dövlət-özəl əməkdaşlığı əsasında maliyyələşmə modelləri, vençur və kraudfandinq institutları və s.) iqtisadiyyatın texnoloji tutumluluğunun artırılmasına yönləndirilməlidir. Dünyada gedən sürətli texnoloji tərəqqiyə çevik uyğunlaşmaqla texnoloji ixrac məkanına çevrilmək üçün perspektivlər yaradılmalıdır. Bu məqsədlə emal sənayesinin inkişafı dərinləşdirilməli, elmtutumlu və yüksək gəlir yaradan orta və yüksək texnoloji sahələrin inkişafı təmin edilməlidir. Nəticəyönümlü elmi tədqiqatların təşviqi üçün rəqabətli maliyyələşdirmə mexanizmləri formalaşdırılmalıdır” [1].

İnnovasiya sahibkarlığının mahiyyəti və inkişaf amilləri

Hazırda iqtisadiyyatda innovasiyaların rolu sürətlə artır. Müasir dünyanı həm artıq movcud olan və vərdiş etdiyimiz, həm də gələcək təkamülə töhfə verəcək innovasiyalarsız təsəvvür etmək mümkün deyil. Əksər alimlər innovasiyaların iqtisadi və sosial inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilməsi ilə razılaşırlar. İnkişaf etmiş bazar iqtisadiyyatı olan ölkələrdə sahibkarlıq fəaliyyətinin təhlili göstərir ki, sahibkarlığın iki modeli mövcuddur: klassik və innovativ sahibkarlıq. Klassik sahibkarlıq gəlirliliyin artırılması və məhsul çeşidinin yenilənməsi üzrə müəssisənin ehtiyatlarını müəyyən etmək üçün xarici amilləri və daxili amilləri əhatə edən istehsal həcmini idarə etməyə yönəlmiş resursların faydalılığını maksimum dərəcədə artırmağa, istehsal həcmini idarə etməyə istiqamətlənmiş ənənəvi, mühafizəkar bir sahibkarlıqdır. Sahibkar, adətən, aşağıdakı keyfiyyətlərə malik olduqda resurslardan maksimum gəlir əldə edilir:

• ciddi olaraq lazımi ölçüdə riskə getmək üçün təşəbbüskar və hazırlıqlı olmaq;

• bazarın cari ehtiyacları haqqında ətraflı məlumata malik olmaq və onun gələcək ehtiyaclarını təxmin etmək bacarığı;

• müstəsna iş qabiliyyəti və “dəmir” intizam;

• işlə bağlı hərtərəfli bilik;

• savadlı və bacarıqlı işçiləri cəlb etmək bacarığı;

• məsrəflər və mənfəət arasındakı əlaqəyə nəzarət etmək bacarığı və vəziyyəti yaxşılaşdırmaq cəhdlərinə baxmayaraq, müəssisə zərərlə işləyərsə, o zaman sahibkarın istehsalı dayandırmağa hazır olması;

• həmişə rəqiblərdən daha yaxşı olmaq cəhdi.

İnnovasiya sahibkarlığı yeniliklə bağlı sahibkarlıq fəaliyyətinin modelidir. Burada sahibkarın əsas rolu yeniliklərin, yəni ənənəvi istehsal amillərindən (əmək, torpaq və kapital) istifadə etməklə əvvəllər məlum olmayan innovasiyaların, o cümlədən məhsulların (əmtəələrin və xidmətlərin), texnologiyaların, istehsalın və idarəetmənin təşkili üsullarının yaradılmasından ibarət olur. Beləliklə, sahibkar innovativ fəaliyyətlə məşğul olarkən nəzərə almalıdır ki, müasir texnologiyalar olmadan, təqdim edilən məhsul və xidmətlərin çeşidini artırmadan, keyfiyyətini yüksəltmədən müəssisə bazarlarda rəqabət qabiliyyətini artıra bilməyəcək. Bundan əlavə, rəqabət qabiliyyətini qorumaq üçün innovasiyanın birdəfəlik deyil, davamlı bir prosesə çevrilməsi lazımdır. Yeniliklərin tətbiqi və yayılması istehlakçılarla sıx əlaqənin qurulmasını tələb edir. Təcrübənin göstərdiyi kimi, bazara tez uyğunlaşmaq üçün müştərilərin yeni ehtiyaclarını nəzərə almaq lazımdır. [2, s.74].

Dünya iqtisadi ədəbiyyatında innovasiya sahibkarlığı anlayışı “innovativ biznes modellərinin” yaradılması ilə əlaqələndirilir. “Biznes modeli” anlayışı ilə bağlı yekdil fikir olmasa da bu, adətən, şirkətin aşağıdakı bir-biri ilə əlaqəli üç suala verdiyi cavabların cəmi kimi qəbul edilir:

• Mənim hədəf auditoriyam kim olmalıdır?

• Müştərilərimə hansı məhsul və xidmətləri təklif etməliyəm, həmçinin təklifimi nə ilə fərqləndirməliyəm?

• Mən bunu necə effektiv edə bilərəm?

"Biznes modeli" strateji innovasiyadır. İnnovasiya sahibkarlığı isə innovasiyaların yaradılması və kommersiyalaşdırılması prosesidir. İnnovasiya təkcə onu təqdim edən şirkət üçün deyil, həm də bütövlükdə bazar üçün yeni, yəni hazırda heç kimin təklif etmədiyi bir şey olmalıdır. İnnovasiyanın məqsədi rəqiblərdən müəyyən bir bazar payını tutmaq, bəlkə də ondan məhrum etmək, həmçinin mövcud bazarı genişləndirmək - yeni müştəriləri cəlb etmək və ya mövcud müştəriləri istehlakı artırmağa təşviq etməkdir.

Mövcud bazarları aşağıdakı hallarda fəth etmək mümkündür.

Birincisi, məhsul və ya xidmətin mövcud rəqib şirkətlər tərəfindən vurğulanan xüsusiyyətlərindən fərqli bir səciyyələndirməsini aparmaqla. Məsələn, ənənəvi hava daşıyıcıları öz məhsullarında müntəzəmliyə, geniş istiqamətlər spektrinə və bortda xidmət keyfiyyətinə, aşağı büdcəli aviaşirkətlər isə biletin qiymətinə diqqət yetirirlər.

İkincisi, innovasiyalar böyük şirkətlərdən gələ bilər, lakin kiçik biznes və ya yeni şirkətlər üçün bunu həyata keçirmək daha asandır. İnnovativ şirkətlər çoxdan fəaliyyət göstərən şirkətlərin bazarları ilə müqayisədə həcmi az olan kiçik bazarlarda fəaliyyət göstərirlər. Onlar öz məhsullarını daim təkmilləşdirir, əsas istehlakçı qrupunun gözləntilərini daha yaxşı qarşılamaq üçün sərmayə qoyurlar. Məsələn, artıq bir çox ölkələrdə internet bankları onlayn treyderlər kimi şəxsi xidmətlərə diqqət yetirirlər: internet vasitəsilə hesabların ödənilməsi, internet bankçılıq və s.

Üçüncüsü, novator şirkətlər elə bazarlar yaradırlar ki, orada müvəffəqiyyət faktorları çoxdan qurulmuş şirkətlərin bazarlarına xas olanlardan fərqli olur. Şirkət ənənəvi bazarlarda qəbul edilənlərdən fərqli yeni fəaliyyət ardıcıllığını (dəyər zənciri, daxili proseslər, strukturlar və korporativ mədəniyyət) tətbiq edir. [3, s.138].

Biznes innovasiyasının mühüm mənbəyi müştərinizin portretinə yenidən baxılması prosesidir, çünki məhz şirkət müştərini seçir, müştəri şirkəti deyil. Bu məsələnin strateji olaraq nəzərdən keçirilməsinin iki məqsədi var: şirkət üçün yeni müştəri müəyyən etmək və ya mövcud müştəri bazasının seqmentləşdirilməsində daha yaradıcı olmaq və bununla da yeni müştəri seqmenti yaratmaq. Məsələn, müştərilər hələ də şirkətdən isti, müasir dəbli paltolar gözləyirlər. Çünki müxtəlif səbəblərdən üslubun, dəbin əhəmiyyəti artmışdır. Bu, şirkətə xüsusilə dəbli üst geyimlər təklif edərək böyümək üçün imkan verir. Yeni məhsul buraxan və ya yeni xidmətlər göstərən şirkət yeni ehtiyac yarada bilər, həmçinin ehtiyacları ödənilməyən müəyyən bir istehlakçı seqmentini də tapa bilər.

İnnovativ fəaliyyət anlayışı innovativ fəallıq anlayışı ilə ayrılmaz şəkildə bağlıdır. Bir çox tədqiqatçılar innovativ fəallığı innovativ fəaliyyətlə müəyyən edirlər, baxmayaraq ki, bu anlayışlar müxtəlif mənalara malikdir. Çünki fəaliyyət məşğulluq və ya hərəkətlər məcmusudur, fəallıq isə fəaliyyətdə iştirak etməyi nəzərdə tutur. İnnovativ fəallıq müstəqil kateqoriyadır və əhəmiyyəti ondadır ki, onun əsasında innovativ fəaliyyətin xarakteri qiymətləndirilir.

Fikrimizcə, innovativ fəallıq dedikdə, sahibkarlıq subyektinin innovativ, intellektual, resurs və digər potensialı səfərbər etmək bacarığından, o cümlədən innovasiyaların inkişafı, tətbiqi və yayılması üzrə həyata keçirilən fəaliyyətin intensivliyi və enerjisindən ibarət innovativ fəaliyyətin kompleks xüsusiyyətləri başa düşülməlidir. İnnovasiya fəaliyyətini aktivləşdirən amillərə aşağıdakılar daxildir:

- dövlətin iqtisadi siyasətinin ən mühüm tərkib hissəsi kimi dövlət innovasiya siyasəti;

- investor kimi çıxış edən təşkilatların pul siyasəti. İnnovativ layihələrin həyata keçirilməsi çox vaxt borc vəsaitlərinin istifadəsini nəzərdə tutur ki, bu da belə investisiyaların yüksək risk dərəcəsinin nəzərə alınmasını tələb edir;

- rəqabət aparan firmaların strategiyaları. Bu amilin əhəmiyyəti digər təsərrüfat subyektlərinin bazarın strukturuna, rəqabətin intensivliyinə təsir göstərmək, zəruri maddi resursların alınmasını tənzimləmək qabiliyyəti ilə müəyyən edilir;

- innovativ münasibətlərin inkişafı nəticəsində yaranan innovasiyalara tələbatın daha çox olduğu istehlakçı davranışı. İnnovativ fəaliyyətlə məşğul olan müəssisə üçün bu amili nəzərə almaq yeni məhsula, xidmətə, texnologiyaya gələcək istehlakçı tələbatının yaradılmasından ötrü əlavə səylər tələb edir. İqtisadi kateqoriya kimi innovativ fəaliyyət üçsəviyyəli iqtisadi sistemin: makrosəviyyənin - dünya bazarında digər ölkələrlə müqayisədə ölkənin innovativ fəaliyyətinin; mezosəviyyənin – regional, sənaye səviyyəsinin; eləcə də mikrosəviyyənin - təşkilatın səviyyəsinin kompleks xarakteristikasıdır. [4, s.13].

Qeyd etmək lazımdır ki, istənilən innovativ fəaliyyət sahibkarlıq xarakteri daşıyır, çünki o, yeni ideyaların axtarışına (yeni məhsuldan yeni struktura qədər) və onların qiymətləndirilməsinə; lazımi resursların axtarışına; müəssisənin yaradılması və idarə edilməsinə; pul gəliri və əldə edilən nəticələrdən şəxsi məmnunluq əldə etmyə əsaslanır. Bununla belə, hər cür sahibkarlıq innovasiya sahibkarlığı kimi tanınmır, yalnız innovativ məhsulun yaradılması, istifadəsi və ya yayılması nəticəsində gəlir əldə etməyə imkan verən sahibkarlıq fəaliyyətləri belə tanınır.

İqtisadi ədəbiyyatda innovasiya sahibkarlığının beş əsas növü var:

- texnoloji innovasiyalar;
- istehsalat innovasiyaları;
- iqtisadi innovasiyalar;
- ticarət innovasiyaları;
- sosial innovasiyalar;
- idarəetmədə innovasiyalar.

İnnovasiya sferasının dinamik inkişafı innovasiya iqtisadiyyatının əsas komponentlərindən biridir.

Kiçik innovasiya sahibkarlığının inkişafına sistemli metodoloji yanaşma

Nəzəri iqtisadiyyatda kiçik biznes sahəsində innovativ fəaliyyətin idarəetmə sisteminin təhlili xüsusi yer tutur. Bu mövzunun öyrənilməsinə metodoloji yanaşma dedikdə isə biz kiçik sahibkarlıq innovasiyalarının idarə edilməsinin məntiqindən, prinsiplərindən və metodlarından istifadənin tək, vahid istiqamətini başa düşürük. İqtisadi münasibətlər sistemində innovasiyaların idarə edilməsini əks etdirən tətbiqi sistemli yanaşma bir neçə formada həyata keçirilir: a) sistemli kompleks yanaşma; b) sistemli normativ yanaşma; c) sistemli proqram yanaşma; d) sistemli dinamik yanaşma; e) sistemli multiplikator yanaşma. İdarəetmə sistemlərinin, kiçik innovasiya sahibkarlığının da daxil olduğu ümumi fəaliyyət qanunauyğunluqları, onların xassələri sistemli təhlilin öyrənilməsi predmetidir [5, s.4]. Fikrimizcə, kiçik müəssisənin innovativ fəaliyyətinin təhlili sistemlərin strukturlaşdırılmasına və alternativlərin kəmiyyətcə müqayisəsinə əsaslanan problemlərin həlli metodologiyasıdır. Sistemli metodoloji yanaşmadan istifadə özündə biliklər nəzəriyyəsinin innovasiya sahəsində baş verən proseslərin öyrənilməsinə tətbiqi formasını xarakterizə edir. Onun mahiyyəti böyük və mürəkkəb sistem qismində fəaliyyət göstərən obyektlər kimi kiçik sahibkarlığın biliklərini özündə ehtiva edən ümumi sistemlər nəzəriyyəsinin tələblərinin həyata keçirilməsindən ibarətdir. Bu proses siyasi-iqtisadi təhlilin müxtəlif aspektlərindən istifadəni əhatə edir **[10].**

Kiçik sahibkarlığın inkişafının müqayisəli təhlili göstərir ki, son 4 ildə Azərbaycanda mikro, kiçik və orta sahibkarlığın (MKOS) ümumdaxili məhsuldakı (ÜDM) payı 3 faiz artaraq 23,5 %-dən 26,5 %-ə çatıb. [11]. Təbii ki, bu çox azdır. Belə ki, hələ ötən illərin statistikasına görə bu göstərici inkişaf etmiş ölkələrdə - Çində 60.0%, İsraildə 62.3%, ABŞ-da isə 56%-dir. Ölkəmizdə 2015-2022-ci illər ərzində mikro, kiçik və orta müəssisələrdə muzdla işləyənlərin ölkə iqtisadiyyatında xüsusi çəkisi isə 18,7%-dən 41,8%-ə çatmışdır. Müqayisə üçün aparıcı ölkələrin iqtisadiyyatını nəzərdən keçirdikdə görürük ki, Çində kiçik sahibkarlıq sahəsində işləyənlərin xüsusi çəkisi 83.0%, Yaponiyada 72.0%, İsraildə 68.7% təşkil edir (Cədvəl 1).

İqtisadçıların fikrincə, 1990-cı illərdə kiçik və orta biznes SSRİ Dövlət Plan Komitəsi tərəfindən idarə olunan genişmiqyaslı sovet istehsalını əvəz etməli idi. Lakin, təəssüf ki, bu baş vermədi. Keçmiş böyük ölkənin iqtisadiyyatı dağıldıqdan sonra kiçik sahibkarlığın inkişafı üçün yetərli

sahibkarlıq mühiti formalaşmadı, istehsal fəaliyyətinin stimullaşdırıcılarından lazımi səviyyədə istifadə edilmədi və bu sahəyə dövlət dəstəyinin səviyyəsi kifayət qədər olmadı.

Cədvəl 1.

Aparıcı ölkələrin iqtisadiyyatında kiçik sahibkarlıq [3]

Ölkələr	ÜDM-də kiçik sahibkarlığın payı, %-lə	Kiçik sahibkarlıq sahəsində işləyənlərin xüsusi çəkisi, %-lə
Çin	60.0	83.0
Yaponiya	55.0	72.0
İsrail	62.3	68.7
Almaniya	43.0	57.0
ABŞ	56.0	52.0
Azərbaycan	26.5	41.8

Hal-hazırda isə innovativ kiçik sahibkarlığın inkişafında irəliləyiş olsa da bir sıra problemlər də mövcuddur [7, s. 820]:

- bir çox normativ-hüquqi aktların təkmilləşdirilməməsi;
- kiçik sahibkarlığın dəstəklənməsi üçün maliyyə-kredit mexanizminin kifayət qədər inkişaf etdirilməməsi;
- kiçik innovasiya sahibkarlığının inkişafı üçün maddi və resurs təminatının zəif olması;
- ədalətsiz rəqabətin mövcud olması;
- inzibati maneələrin mövcudluğu;
- kiçik sahibkarlığa informasiya dəstəyi sisteminin inkişaf etməməsi;
- innovasiya proqramlarının kadr təminatı problemləri və s.

Kiçik innovasiya sahibkarlığının inkişafına sistemli metodoloji yanaşma aşağıdakı struktur elementləri əhatə edir:

- innovasiyaların idarə edilməsi subyektinin əldə etdiyi hədəflər sisteminin formalaşdırılması;
- innovasiyaların idarə edilməsi obyektinin, xüsusilə, onun innovasiya fəaliyyətinə başlamazdan əvvəlki vəziyyətinin təhlili [8, s.40];
- idarəetmə subyektinin bazar imkanlarının, bazar ehtiyaclarının həcminin və strukturunun araşdırılması;
- istifadə olunan resursların həcminin və strukturunun müəyyən edilməsi;
- idarəetmə qərarlarının qəbulu.

Kiçik biznesin inkişafına sistemli metodoloji yanaşmanı bilik və dialektika nəzəriyyəsinin innovasiya proseslərinin öyrənilməsinə tətbiqi forması kimi səciyyələndirərək qeyd etmək lazımdır ki, elmi nəzəri yanaşmalardan istifadə kiçik sahibkarlıq sistemində innovasiyaların idarə edilməsinin səmərəliliyini təmin etməyə imkan verir. Kiçik müəssisənin innovasiya fəaliyyətinin idarə edilməsi sistemini qurarkən həmin müəssisənin missiyasının və məqsədlərinin onun inkişafında mühüm rol oynayacağı bir alqoritm hazırlamaq lazımdır (Cədvəl 2). Bu işdə xüsusi yeri kiçik müəssisənin innovativ məqsədlərə nail olmaq qabiliyyətinə təsir göstərə bilən xarici və daxili mühitin kritik elementlərini müəyyən etmək üçün kiçik müəssisənin inkişaf amillərinin təhlili tutur.

Kiçik innovasiya sahibkarlığının inkişaf aspektləri milli innovasiya sisteminin səmərəliliyinin göstəricisi kimi

İqtisadi inkişafın hazırkı mərhələsi dünya iqtisadi münasibətlərində əsaslı dəyişikliklərlə səciyyələnir ki, bu da rəqabətin artması və yeni elmtutumlu iqtisadiyyatın - “bilik iqtisadiyyatı”nın fəal formalaşdırılması əsasında milli iqtisadi sistemlərin dərin transformasiyası ilə müşayiət olunur. Dünya iqtisadi sistemində bu tendensiyaların əsasında duran obyektiv qanunauyğunluqlar məhsuldar qüvvələrin inkişaf səviyyəsinə, əmək ehtiyatlarının keyfiyyətinə, ictimai istehsal amillərinin strukturuna və istehsal prosesinin təşkilinə, milli iqtisadiyyatın institusional mühitinə müvafiq tələblər qoyur. Bu tələblərə əməl olunması milli istehsalın səmərəliliyini və rəqabət qabiliyyətini

təmin edir. Bu gün hamı başa düşür ki, ölkəmizin innovasiya (bilik) iqtisadiyyatına keçid etməsinə və milli innovasiya sisteminin (MİS) yaradılmasına ehtiyacı var.

Cədvəl 2

Kiçik müəssisənin innovasiya fəaliyyəti şəraitində idarəetmə hərəkətlərinin alqoritmi

İnnovasiya fəaliyyətinin idarəetmə sisteminin elementləri	Kiçik sahibkarlıqda innovasiyaların idarə edilməsi strategiyasının elementlərinin xüsusiyyətləri
1. Kiçik innovativ müəssisənin missiyası	Təşkilatın fəlsəfəsinin və məqsədinin müəyyən edilməsi. Missiyanın xüsusi əhəmiyyəti: birincisi, missiya təşkilatın bütün planlaşdırma qərarları üçün əsasdır və dayaq nöqtəsidir; ikincisi, missiya işçilərin səylərini innovativ məhsul və texnologiyaların hazırlanmasına və tətbiqinə yönəltməyə kömək edir.
2. İnnovasiya fəaliyyətinin idarəetmə məqsədləri	Planlaşdırma dövründə təşkilatın tam şəkildə əldə edilməsi gözlənilən ən ümumi fəaliyyət istiqamətlərinin hazırlanması. İnnovasiya mühitində tapşırıqların yerinə yetirilməsi formasını və vaxtını müəyyən edən konkret, kəmiyyətcə ölçülə bilən meyarlar kimi əsaslandırılması.
3. Kiçik innovativ müəssisələrin resurslarının daxili və xarici mühit amillərinin təhlili	Kiçik müəssisələrin innovasiya fəaliyyətinə təsir edən ən mühüm amillərin nəzərə alınması. Təşkilatın fəaliyyəti haqqında müsbət rəyin yaradılması. İnnovasiya fəaliyyətinin informasiya-kommunikasiya təminatı.
4. Kiçik müəssisələrin innovativ fəaliyyətinin inkişafı üçün strateji istiqamətlərin həyata keçirilməsi	Elmtutumlu istehsalın dəstəklənməsinə, innovasiya menecmentinin müasir sistemlərinin tətbiqinə yönəldilən investisiya qoyuluşu. Təqdim edilən məhsul və xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması və çeşidinin artırılması, yüksək gəlirli fəaliyyət sahələrinin genişləndirilməsi və xərclərinin minimuma endirilməsi.

Nisbətən yeni sosial-iqtisadi institut olan milli innovasiya sistemi bazar iqtisadiyyatı şəraitində sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə (bilik iqtisadiyyatına) keçid mərhələsində təbii olaraq sahibkarlıq fəaliyyəti zamanı yaranır. Ümumiyyətlə, MİS-in müxtəlif tərifləri var. Məşhur Qərb alimi R.Nelson milli innovasiya sistemini “qarşılıqlı əlaqəsi milli firmaların innovativ fəaliyyətini... müəyyən edən institutlar şəbəkəsi” kimi xarakterizə edir [9, s.17]. Professor A.Amosovun fikrincə isə “MİS özündə fundamental elmin inkişafını, təhsil müəssisələrində kadr hazırlığını, tətbiqi ETTKİ-ni (elmi-tədqiqat və təcrübi- konstuktor işlərini), vençur sahibkarlığını, marketinqi, mühəndisliyi, innovativ istehsalı birləşdirir” [6, s.9].

MİS-in ən məşhur şərhlərinin təhlili inkişaf etmiş bazar iqtisadiyyatına malik ölkələrin müasir milli innovasiya sistemlərinin aşağıdakı əsas komponentlərini müəyyən etməyə imkan verir:

1) iqtisadiyyatın özəl və dövlət sektorlarında fəaliyyət göstərən və qarşılıqlı əlaqədə olan, yeni biliklərin, məhsulların və texnologiyaların yayılmasına təşəbbüs göstərən, yaradan, dəyişdirən və töhfə verən sosial-iqtisadi institutlar (təşkilatlar) şəbəkəsi;

2) milli iqtisadiyyat daxilində yeni biliklərin, məhsulların və texnologiyaların istehsalçıları və istehlakçıları arasında qarşılıqlı münasibətlər;

3) rəqabəti, çoxsaylı təşəbbüs mənbələrini və resursların yenidən bölüşdürülməsini təmin edən bazar mexanizmi;

4) səmərəli və keyfiyyətli iqtisadi artımın əsası kimi sürətləndirilmiş innovativ inkişafa yönəlmiş MİS çərçivəsində dövlətin elmi-tədqiqat və texnologiya siyasəti.

Əsasən nəzərə almaq lazımdır ki, dövlətin iştirakı olmadan effektiv milli innovasiya sistemi mümkün deyil. Lakin müasir şəraitdə belə iştirak üstünlük təşkil etməməli, paritet tərəfdaşlıq şəklində olmalıdır. Dövlət sahibkarların innovativ rəqabətinə mane olmamalı, onların inkişafına kömək etməlidir, çünki məhz innovasiyaları kommersiyalaşdırmağa çalışan sahibkarlıq MİS-in əsasını təşkil edir.

Deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, milli innovasiya sistemi dövlətin, özəl və digər təşkilatların institusional motivlər şəbəkəsini, qaydaları, fəaliyyət strategiyalarını və paritet əlaqələri özündə birləşdirir və bu da ölkənin rəqabətədavamlı və sosial cəhətdən səmərəli inkişafını təmin edən innovasiyaların yaradılmasına və geniş yayılmasına yönəldilib.

XXI əsrin əvvəllərində inkişaf etmiş ölkələrdə MİS-in təkamül təcrübəsi tədqiq olunan sahənin

yüksək dinamizmindən xəbər verir. Qeyri-müəyyən və sürətlə dəyişən iqtisadi şəraitdə innovativ firmaların rolu artır, onların klasterləşməsi baş verir, elm, biznes və dövlət arasında innovasiyanın inkişafına yönəlmiş qarşılıqlı əlaqələrin effektivliyi çoxalır.

Məlum olduğu kimi, mikrosəviyyədə MİS-in fəaliyyətinin və effektivliyinin ən mühüm göstəricisi kiçik innovasiya sahibkarlığının inkişafıdır. Hər bir ölkə üçün yalnız yeni iş yerləri yaratdığına görə deyil, həm də ÜDM-in elmtutumluluğunu (ÜDM-də ETTKİ xərclərinin payını), ölkənin elmi-texniki və innovativ potensialını, rəqabət qabiliyyətini artırdığı və dünya birliyində onun mövqeyini möhkəmləndirdiyi üçün iqtisadiyyatın müasirləşdirilməsinin bu mərhələsi cəlbedicidir.

Ümumiyyətlə, kiçik innovasiya sahibkarlığının inkişafı müasir iqtisadiyyatın vacib aspektlərindən biridir. Bu sahə yeni texnologiyaların tətbiqi, yaradıcı yanaşmaların inkişaf etdirilməsi və iqtisadi rəqabətliliyin artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu inkişafın aşağıda verilmiş əsas aspektlərini nəzərdən keçirək.

▪ **Maliyyə dəstəyi və investisiyalar**

Startap maliyyələşməsi: Kiçik innovasiya sahibkarlığının inkişafı üçün dövlət və özəl sektor tərəfindən maliyyə dəstəyi çox vacibdir. Bu, inkubasiya mərkəzləri, texnoloji parklar və startap fondları vasitəsilə həyata keçirilir.

Vergi güzəştləri: İnnovativ layihələr üçün dövlət tərəfindən vergi güzəştlərinin və subsidiya proqramlarının tətbiqi böyük əhəmiyyət daşıyır.

▪ **Təhsil və bacarıqların inkişafı**

İnnovasiya ekosisteminin yaradılması: Təhsil müəssisələri ilə biznes sektorunun əməkdaşlığı innovasiya bacarıqlarını gücləndirir.

Təlim proqramları: Sahibkarların texnoloji və idarəetmə biliklərini artırmaq üçün təlim və mentorluq proqramları həyata keçirilir.

▪ **Texnoloji infrastrukturun inkişafı**

İnnovasiya mərkəzləri: Texnoparklar, laboratoriyalar və digər innovativ platformalar kiçik sahibkarlıq subyektlərinə texnoloji dəstək verir.

Rəqəmsallaşma: Rəqəmsal texnologiyaların tətbiqi biznes proseslərinin optimallaşdırılmasına və xərclərin azalmasına kömək edir.

▪ **Tənzimləyici və institusional mühit**

Hüquqi çərçivə: İnnovasiya bizneslərini təşviq edən qanunvericilik və sahibkarlıq fəaliyyəti üçün əlverişli mühitin yaradılması vacibdir.

Dövlət dəstəyi proqramları: İxraca yönəlik innovasiya layihələrini dəstəkləyən dövlət proqramları və qrantlar sahibkarlığı stimullaşdırır.

▪ **Beynəlxalq əməkdaşlıq və bazara çıxış**

Əməkdaşlıq şəbəkələri: Xarici ölkələrdə fəaliyyət göstərən innovasiya mərkəzləri ilə əməkdaşlıq təcrübə mübadiləsini artırır və yeni bazarlara çıxış imkanı yaradır.

Eksport imkanları: Kiçik sahibkarlar məhsullarını xarici bazarlara çıxarmaları üçün xüsusi dəstək mexanizmləri ilə təmin olunmalıdırlar.

▪ **İstehlakçı tələbatının öyrənilməsi**

Bazar araşdırmaları: İnnovasiya sahəsində fəaliyyət göstərən kiçik bizneslər üçün məqsədli bazar təhlilləri vacibdir.

Məhsul uyğunlaşması: Müştərilərin tələbatına uyğun olaraq innovativ məhsulların inkişaf etdirilməsi daha yüksək satış potensialı yaradır.

Bu aspektlər kiçik innovasiya sahibkarlığının inkişafı üçün əsas şərtlərdir və onların kompleks şəkildə tətbiqi iqtisadiyyatın innovativ transformasiyasını sürətləndirə bilər.

Nəticə

Ölkəmizdə sahibkarlığın innovasiya fəaliyyəti sahəsində mövcud vəziyyət bütün tədarük edilən məhsullarda innovativ məhsulların payının nəzərəçarpacaq dərəcədə dəyişdirilməsini (iqtisadiyyatın innovativ fəaliyyətinin əsas göstəricisi olaraq) zəruri edir. Kiçik innovasiya müəssisələrinin

daxili iqtisadiyyat üçün yüksək əhəmiyyətini, eləcə də onların vəziyyətini nəzərə alsaq, bu gün ən çox tədarük edilən məhsulların ümumi həcmində innovativ məhsulların artırılmasına, innovativ fəaliyyətin stimullaşdırılması istiqamətində tədbirlərin görülməsinə böyük ehtiyac var. Bu baxımdan dövlət, adətən, elmi-texniki sahədə sahibkarlığın inkişafını daha çox təşviq edir, bunun üçün xüsusi infrastruktur yaradır, müəyyən iqtisadi güzəştlər edir; təhsil sistemi çərçivəsində kadrların, alim və mütəxəssislərin hazırlanması təmin olunur. Bununla belə, təəssüflə qeyd etməliyik ki, ölkəmizdə texnoloji innovasiyalar həyata keçirən təşkilatların sayı çox azdır. Kiçik sahibkarlığın innovasiya fəaliyyəti də ölkədə səmərəli iqtisadi artımın təmin edilməsi tələblərinə və qəbul edilmiş standartlara tam cavab vermir.

Nəzərə alsaq ki, kiçik innovasiya sahibkarlığının inkişaf etdirilməsi iqtisadiyyatın şaxələndirilməsi, rəqabətqabiliyyətliliyinin artırılması, bir sözlə, iqtisadi tərəqqi üçün əhəmiyyətlidir, ölkəmizdə bu sahənin inkişafını stimullaşdırmaqdan ötrü bir sıra tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab etmək olar. Fikrimizcə, aşağıda irəli sürdüyümüz təkliflər kiçik innovasiya sahibkarlığı sahəsində irəliləyişə töhfə verə bilər.

- **Maliyyə dəstəyi və təşviqlər**

Subsidiyalar və qrantlar: Kiçik innovasiya müəssisələrinə tədqiqat və inkişaf üçün dövlətin və özəl sektorun maliyyə dəstəyini təmin etmək, startap fondları və s. yaratmaq.

Vergi güzəştləri: İnnovasiya layihələrinə investisiya qoyan sahibkarlara vergi güzəştləri tətbiq etmək.

İnkubator və akselerator proqramları: Dövlət və özəl sektor tərəfindən gənc sahibkarlar üçün innovasiya mərkəzləri yaratmaq, startapların sürətli inkişafını təmin edən proqramlar təşkil etmək.

- **Maliyyə resurslarına əlçatanlıq**

Vençur kapitalı və biznes mələkləri: Startaplara ilkin maliyyə dəstəyi üçün vençur fondlarını təşviq etmək.

Bank kreditləri: Kiçik innovasiya sahibkarlığı üçün aşağı faizli kreditlər (o cümlədən mikrokreditlər) təqdim etmək.

Kütləvi maliyyələşdirmə platformaları: Onlayn platformalar vasitəsilə kiçik sahibkarlıq layihələrinə dəstək toplamaq.

- **Texnologiya və təhsil**

İnnovasiya üçün texnoloji dəstək: Rəqəmsal texnologiyaların tətbiqini genişləndirmək və sahibkarları bu sahədə maarifləndirmək.

Universitet-sənaye əməkdaşlığı: Universitetlər və müəssisələr arasında əlaqələri gücləndirərək innovativ tədqiqatların kommersiyalaşdırılmasını dəstəkləmək.

Təlim proqramları: Sahibkarlar üçün innovasiya idarəetməsi, layihə planlaşdırılması və rəqəmsal transformasiya üzrə təlimlər, o cümlədən innovasiya və sahibkarlıqla bağlı kurslar təşkil etmək.

- **İnfrastrukturun yaradılması**

Texnoparklar və innovasiya mərkəzləri: Sahibkarların rahat fəaliyyət göstərə biləcəyi ixtisaslaşmış zonalar yaratmaq.

Rəqəmsal infrastruktur: İnternet və texnoloji avadanlıqların əlçatanlığını artırmaq.

- **Beynəlxalq əməkdaşlıq**

Beynəlxalq layihələrdə iştirak: Kiçik sahibkarların qlobal innovasiya proqramlarına qoşulmasını dəstəkləmək.

Beynəlxalq sərmayələrin cəlb edilməsi və təcrübə mübadiləsi: Xarici investorların diqqətini yerli innovativ layihələrə cəlb etmək üçün təşviq proqramları yaratmaq, yerli sahibkarların xarici ölkələrdə təcrübə keçməsi üçün proqramlar təşkil etmək.

Texnologiya transferi: Xarici innovasiyaların yerli bizneslərə tətbiqini təşviq etmək.

İxracın təşviqi: Yerli innovasiya məhsullarının xarici bazarlara çıxarılmasını asanlaşdırmaq, onlayn platformalar yaratmaq, bu məhsullar üçün sərgilər və əməkdaşlıq forumları təşkil etmək.

- **Qanunvericilik və tənzimləmə**

Sahibkarın normal fəaliyyətini dəstəkləyən qanunlar: Qeydiyyat və idarəetmə proseslərini

sadələşdirmək, sahibkarların bürokratik maneələrini aradan qaldırmaq.

Əqli mülkiyyət hüquqlarının qorunması: İnnovatorların ideyalarının qanuni şəkildə müdafiəsini təmin etmək.

- **Cəmiyyətin maarifləndirilməsi və mədəniyyət dəyişikliyi**

İnnovasiya mədəniyyəti: İnnovasiya və sahibkarlığın cəmiyyətdə daha çox tanıdılması üçün tədbirlər və kampaniyalar keçirmək.

Motivasiya tədbirləri və mentor dəstəyi: Gəncləri innovasiya fəaliyyətlərinə həvəsləndirmək üçün müsabiqələr və mükafatlar təşkil etmək, təcrübəli sahibkarların yeni biznes qurmaq istəyənlərə məsləhətlər verməsi üçün mentor şəbəkəsi yaratmaq.

Yuxarıda sadalanan təkliflərin bəziləri respublikamızda müəyyən qədər həyata keçirilsə də, etiraf edək ki, qənaətbəxş səviyyədə deyildir. Ona görə də, fikrimizcə, bu tədbirlər birgə və yetərincə reallaşarsa, ölkəmizdə kiçik innovasiya sahibkarlığının daha geniş yayılmasına, inkişafına və davamlı tərəqqiyə nail olmağa kömək edə bilər.

ƏDƏBİYYAT

1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər." Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
2. İ.Qasımov, F.Cəbiyev. "İnnovasiya sahibkarlığı və texnoparklar", Bakı Mühəndislik Universiteti, 2017, s.182.
3. M. Tosun, E. Süleymanov, M.Musayeva, İ. Qasımov, M. Rəsulova, U. Seyidov, F. İsmayilzadə "İnnovasiya və sahibkarliq: startap eksosistemi", Bakı – 2023, s. 286.
4. K. İmanov. "İnnovativ inkişafda texnologiyaların kommersiyalaşdırılması və transferi mərkəzləri" (Yaradılması və fəaliyyəti üzrə tövsiyələr). Bakı, 2019, s.20.
5. Гордеев, В.А. Теоретическая экономия: новые идеи к разработке и развитию / В.А. Гордеев. - Текст : электронный // Теоретическая экономика. - 2021 – N 12. - С.4-10. - URL: http://www.theoreticaleconomy.ru
1. Амосов, А. О неоиндустриальном сценарии в концепции развития до 2020 г. /А. Амосов // Экономист. – 2011. – № 6. – с. 3–17.
2. Токаева Б.Б. Токаева А.Б. Инновации в малом и среднем предпринимательстве // Фундаментальные исследования. – 2015. – № 11 (часть 4) – с. 820-823.
3. Коречков Ю.В., Джиоев О.В. Синергетический эффект интеграционных процессов и мультипликация инвестиций в интегрированных организациях // Интернет-журнал Науковедение. 2015. Т. 7. № 2 (27). с. 40.
4. Nelson, R. National Innovation Systems: A Comparatise Analysis / R. Nelson. – N. Y. : Oxford University Press, 1993.
5. G.A. Rodina. «Systemic view on the problems of sustainability of the economic systems and the specificity of performance evaluation of public control in contemporary Russia»/ D.S. Vakhrushev, D.V.Tumanov, // Academy of Strategic Management Journal (ISSN15441458-USA-Scopus). 2018. - №1. – 0,5 p.s.
6. https://report.az/maliyye-xeberleri/azerbaycanda-mkos-un-udm-de-payi-27-e-yaxinlasib/

Рафиг Меджид оглы Рзаев
Старший научный сотрудник
Института Экономики МНО АР
rafiqrzayev74@mail.ru

Аспекты развития малого инновационного предпринимательства

Резюме

Цель исследования – определить аспекты развития малого инновационного предпринимательства.

Методология исследования – в исследовательской работе использовались системный и другие подходы, включая логическое обобщение и сравнительный анализ.

Значимость внедрения исследования - фундаментальные анализы в исследовании имеют возможность создать условия для определения факторов, стимулирующих инновационное предпринимательство, и особенностей его развития.

Результаты исследования - теоретическое рассмотрение факторов, влияющих на аспекты развития малого инновационного предпринимательства и особенностей их формирования, приводит к достижению ряда результатов.

Оригинальность и научная новизна исследования - выявление аспектов развития малого инновационного предпринимательства, важных для диверсификации экономики, повышения конкурентоспособности и экономического прогресса в целом, определяет научную актуальность исследования.

Ключевые слова: инновационное предпринимательство, бизнес-модель, методологический подход, стартап, налоговые льготы, технопарки, наукоемкость, национальная инновационная система.

Rafig Majid Rzayev
Senior Researcher,
Institute of Economics, MSE AR
rafiqrzayev74@mail.ru

Aspects of development of small innovative entrepreneurship

Summary

The purpose of the study is to determine the aspects of development of small innovative entrepreneurship.

Methodology of the research - the research work used systemic and other approaches, including logical generalization and comparative analysis.

Importance of integration of research - fundamental analyses in the study have the ability to create conditions for determining the factors stimulating innovative entrepreneurship and the features of its development.

Results of the research - theoretical consideration of the factors influencing the aspects of development of small innovative entrepreneurship and the features of their formation, leads to the achievement of a number of results.

Originality and scientific innovation of the research - identifying aspects of the development of small innovative entrepreneurship that are important for diversifying the economy, increasing competitiveness and economic progress in general, determines the scientific relevance of the study.

Key words: innovative entrepreneurship, business model, methodological approach, startup, tax incentives, technology parks, knowledge intensity, national innovation system.